# Milli Qurtuluş gününə həsr olunmuş tədbirlər

Rayonumuzun demək olar ki, bütün idarə-müəssisələrində Azərbaycanın müstəqillik əldə etməsi-Milli Qurtuluş günü ilə əlaqədar tədbirlər keçirilmişdir.

Rayon Mədəniyyət mərkəzində Milli Qurtuluş gününün 29-cu ildönümünə həsr olunmuş "Qurtuluşdan zəfərə" adlı dəyirmi masa keçirilmişdir. Tədbirdə çıxışlar dinlənildikdən sonra Milli Qurtuluş gününə həsr edilmiş videoçarx nümayiş etdirilmişdir.



* * *

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin təşkilatçılığı ilə tədbir keçirilmişdir. Tədbirdə şəhər 1 və 2 saylı məktəblərinin şagirdləri iştirak etmiş, onların ifasında şeirlər və mahnılar səsləndirilmişdir.

* * *

Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Qəbələ Olimpiya İdman Kompleksində Milli Qurtuluş gününə həsr olunmuş stolüstü tennis üzrə kişilər arasında rayon turniri keçirilmişdir. Rayonun idarə, müəssisə və idman kollektivlərindən olan 16 idmançı arasında keçirilən birinciliyin yekun nəticəsinə əsasən, Mövlan Xəlilov I yerə, Ramiz Mirkamalov II yerə, Əli Hacıyev isə III yerə layiq görülmüşdür.

Peşə Təhsil Mərkəzində "Milli Qurtuluş günü" ilə əlaqədar keçirilən tədbirlərdə müəllim və tələbə kollektivləri iştirak etmişlər. Çıxış edənlər ümummilli liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyulduğunu, Azərbaycanın dövlət kimi inkişaf etməyə başladığını qeyd etmişlər.

# Qürur duyulacaq abituriyent

*Onu bir damla kimi*
*Dənizə tullasalar*
*Damlalarla birləşib,*
*Dağ yıxan dalğa olar.*

Əgər bir insanın istedadı varsa, mütləq üzə çıxar. İstedad elə bir məhkumdur ki, əvvəl-axır öz haqqını alar, ədalətin bərpasını təcəssüm etdirər; ən qiymətli daş-qaş kimi nə çilləkənlər, nə qaranlıqlar onu gizlədə bilməz, parıltısı görünər. Yalnız "pis niyyətli daşlar"dan qorumaq lazım istedadları!

Bilik, savad uğrunda "savaş" Vəndam qəsəbə məktəblərində ta qədimdən ənənəvi hal almışdır. Natiq Məmmədov da məhz Vəndamda dünyaya göz açmış, 1 saylı məktəbdə orta təhsil almağa başlamışdır. Hələ kiçik yaşlarından elm öyrənməyə marağı çox idi. Bacısı və qardaşı ali məktəbə hazırlaşarkən onlara qibtə hissi ilə baxar və daha tez böyümək istərdi. Evin kiçiyi olduğu üçün nə qədər ərkəsöyün böyüsə də, həyat anlamını dərk edir, xaraktercə həmyaşıdlarından fərqlənərdi, özünəməxsus arzu toplumu var idi.



8-ci sinfi bitirdikdən sonra Natiq Məmmədov Qəbələ şəhər 1 saylı orta məktəbində orta təhsilini davam etdirir. Bu məktəbdə də biliköyrənmə-qavrama səviyyəsinə görə fərqlənirdi. Müəllimlərinin, məktəbli dostlarının bilik və intizamına görə rəğbətini qazanmışdı.

Ali məktəblərə qəbul olaraq tələbə adı almaq şagirdlərin ən başlıca yarışmasıdır.

Dövlət İmtahan Mərkəzi I və IV ixtisas qrupları üzrə iyunun əvvəlində keçirilən qəbul imtahanlarının nəticələrini elan etmişdir. Bu imtahanlarda I qrup ixtisası üzrə respublika üzrə 10 nəfər abituriyent 700-ə yaxın bal toplayaraq yüksək nəticə göstərmişlər. Həmin abituriyentlərdən biri də həmyerlimizdir. Natiq Nabir oğlu Məmmədov-Qəbələ şəhər 1 saylı orta məktəbin məzunu-blok imtahanlarından 400 bal, buraxılış imtahanlarından 290 bal toplamışdır.

Bu isə rayonumuz üzrə ən yüksək göstərici hesab olunur.

Biz də qalib abituriyentimizi tələbə adı münasibətilə təbrik edir, elm uğrunda daha yüksək göstəricilər qazanmasını arzulayırıq!

**BİBİXANIM.**

# İnsan Hüquqları Günü münasibətilə tədbir



Qəbələ Mədəniyyət Mərkəzində "İnsan Hüquqları Aylığı" çərçivəsində Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Şəki Regional Miqrasiya idarəsi və rayon icra hakimiyyətinin təşkilatçılığı ilə tədbir keçirilmişdir. Tədbir vətənin bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin xatirəsinin 1 dəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır. RİH başçısının müavini Ətayə Osmanova qonaqları salamlayaraq "İnsan Hüquqları Günü"nün yaranma tarixindən, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin Şəki Regional Mərkəzinin rəhbəri Pərviz Məmmədov bu sahədə görülmüş işlərdən söz açmış, Şəki Regional Miqrasiya İdarəsinin nümayəndələri isə "Əcnəbilərin hüquq və vəzifələri", "Vətəndaşsızlıq hallarının aradan qaldırılması mövzusunda çıxış etmişlər. Rayon icra hakimiyyətinin, idarə, müəssisə, təşkilatların və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbir diskusiya şəklində davam etdirilmişdir.

# Əbədiyaşar musiqişünas

Qəbələ rayon Mədəniyyət Mərkəzində görkəmli bəstəkar, SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı Fikrət Əmirovun 100 illik yubileyi münasibətilə "Musiqisi ilə əbədiyaşar sənətkar" adlı ədəbi-bədii tədbir keçirilib. Mədəniyyət işçiləri, rayon ictimaiyyəti və media nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə İsmayıllı Regional Mədəniyyət İdarəsinin baş məsləhətçisi Nargilə Qafarova açaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən dahi bəstəkar Fikrət Əmirovun 100 illik yubileyinin qeyd edilməsi haqqında imzalanmış sərəncama uyğun olaraq respublikada silsilə tədbirlərin keçirildiyini qeyd etmişdir. Sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızı isə Azərbaycan bəstəkarlıq məktəbinin böyük nümayəndəsi, simfonik muğam janrının banisi Fikrət Əmirovun həyat və yaradıcılığı, əsərləri barədə geniş məlumat vermişdir. Sonda Qəbələ Uşaq İncəsənət məktəbinin müəllim və şagirdlərinin ifasında Fikrət Əmirovun əsərlərindən nümunələr səsləndirilmiş, Səadət Təhmirazqızının senari müəllifi olduğu bəstəkarın həyat və yaradıcılığından bəhs edən televiziya filmi nümayiş olunmuşdur.



# Maarifləndirici tədbir

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının və Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "26 iyun Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə Beynəlxalq Mübarizə Günü"nə həsr olunmuş maarifləndirici tədbir keçirilmişdir. Tədbirdə həmçinin hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların, eləcə də QHT və vətəndaş cəmiyyətlərinin nümayəndələri iştirak etmişdir. Çıxış edən RİH başçısının müavini Ətayə Osmanova dövlət tərəfindən narkomaniyaya qarşı aparılan mübarizə tədbirlərindən bəhs etmişdir. Sonra Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupunun üzvü Vasif Quliyev gənclərlə bu mövzuda geniş maarifləndirici söhbət aparmış, komissiyanın gördüyü işlər barədə məlumat vermişdir. Tədbir diskussiya şəklində davam etdirilmişdir.

# "Məzun günü" qeyd edilmişdir

Rayonumuzun 68 ümumtəhsil məktəbində "Məzun günü"nə həsr edilmiş tədbirlərdə 1100 nəfər məzun üçün məktəb həyatının son, müstəqil həyatın ilk zəngi çalınıb. Məktəblərdə keçirilən bayram tədbirlərində rayon icra hakimiyyətinin, təhsil şöbəsinin, eləcə də idarə, müəssisə və təşkilatların nümayəndələri, müəllimlər və valideynlər iştirak etmişlər. Tədbirlərdə çıxış edənlər məzunları və valideynləri təbrik edərək, məktəbi bitirən şagirdlərə uğurlar arzulamış, Ulu Öndər Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafındakı əvəzsiz xidmətlərindən, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən təhsil sahəsində aparılan uğurlu siyasətdən, görülən geniş miqyaslı işlərdən söz açmışlar.



**"Qəbələ"**

# İnsan alverinə qarşı mübarizə mövzusunda tədbir

Qəbələ RİH-nin, Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nına əsasən "İnsan alverinə qarşı mübarizə" mövzusunda tədbir keçirilmişdir. Qəbələ RİH-nin, RPŞ-nin, Gənclər və İdman İdarəsinin, Heydər Əliyev Mərkəzinin, Qəbələ Asan Xidmət Mərkəzinin, Azərbaycan Respublikası Qızıl Aypara Cəmiyyətinin Qəbələ rayon şöbəsinin əməkdaşları, Qəbələ Dövlət Peşə Təhsil Məkəzinin tələbələri, ümumtəhsil məktəblərinin psixoloqlarının iştirak etdiyi tədbirdə ümumbəşəri problem olan insan alverinə qarşı mübarizə məqsədilə maarifləndirmə işlərinin aparılmasının vacibliyindən, bu sahədə tədbirlərin gücləndirilməsindən, qanunvericilik bazasının yaradılmasının əhəmiyyətindən danışılıb. Tədbir qarşılıqlı müzakirə şəklində davam edib.



**"Qəbələ"**